# XƏYANƏTİN KƏSİŞMƏSİ

*povest*



*Rüstəm CABBAROV*

*(Əvvəli ötən sayımızda)*

Ötən vaxt ərzində Fəyazın Şərqiyənin başını aldadıb öz toruna salması, Daniyar üçün sirr deyildi.

Hər ikisi yataqxananın yaxınlığındakı gül dükanından yaraşıqlı bir buket gül alaraq, Şərqiyə yaşadığı otağa yollandılar. Xoşbəxtlikdən, otaqda Şərqiyədən başqa heç kim yox idi. Fəyazla Daniyarın birgə gəldiyini görüb, əvvəlcə qızın ağlı başından ucdu. Hər ikisinin əlində buketləri görüb, məsələnin mahiyyətini başa düşərək, özünü əla aldı. Uzun müddət fikirləşməyə vaxt yox idi. Oğlanlar cavabı  gözləyirdilər. Yaranmış sükut bir neçə dəqiqə davam etdi. Fəyazın bir iki öskürəyindən sonra, daş heykəl kimi ağırlaşan bədənini tərpədərək oğlanlara tərəf addımladı. Əvvəlcə Daniyarın qarşısında dayanaraq, onun əlindəki qımızı bənövşəyi gül buketinə səssizcə tamaşa etdi. Sonra isə... gözünü yerdən qaldırmayaraq... Fəyazın əlindəki gülü alaraq tələsik otağı tərk etdi...

Bax buda gül. Yox bu gül deyildi, ürəyinin bir parcası idi. Bəli, bu gül buketi deyil qanlı ürək ağrısı idi. Bəlkə də ucunda yanan bir məşəl və ya sadəcə bir kükürt çubuğudur? Yanıb yanıb qurtaracaq. Əgər vaxtında atmasan, samanı yandırar və əlin yanar.

“ Ah qolum, qolum yandı. Məni odladın! Yandıracam, od qoyacam!”

Bu zaman qapı açıldı...

* * *

“Qızıldımı” Bəli, görmürsənmi qızıldı. İndiki qızlar qızıldan implantasiya olunmuşlar”.

Sirac çox zərif işlənmiş incə zənciri maraqla nəzərdən keçirdi. İndi qızıl bazarı maraqlıdı. Bunun üçün nəğdiləşdirmə də elə çətin deyil. İstənilən bazara getsən, “qızıl alıram, qızıl” deyərək orada gəzənləri görərsən. Ən azı yüz min pulun olması mümkündü. Bu isə, hər bir tələbə üçün az pul deyildi. Bir həftəlik alış-veriş etməklə, cənnətdə bir həftə yol gedərək yaşamaq, ya da qızlarla əylənmək olar.

Bu barədə düşünürəm, oğlanın üzünə təbəssümlə gülümsədi. O çoxdan gözlədiyi bu anları xəyalına gətirib gözlərini yumdu. Elə bu anda qapı açıldı, yuxarıda dayanmış Fəyaz başa düşmədi ki, bir nəfər otağa girdi. O, tələsik əlini yumaraq arxasında gizlətdi. Sevinərək ayağa qaxdı. Özünü əla alaraq, gözlənilməyən “qonaqların” yanına getdi.

-Buyurun, nə lazımdı?

Fəyaz görüşmək üçün əlini uzatdı. Əksinə, zəncir sağ tərəfdə idi. Qızararaq, sol əlini arxasına ötürüb zənciri götürdü və ona uzatdı.

-Bu oğlanı tanıyırsanmı?-naməlum kişi Fəyazı göstərərək soruşdu.

Bu-bunu tanıyıram, lakin sizi yadıma sala bilmirəm, - qəribə bir vəziyyətdə başlanan tanışlıqdan, Sirac təəccübünü gizlədə bilmədi.

Naməlum şəxs döş cibindən vəsiqəsini çıxarıb göstərdi.

-Cinayət axtarış şöbəsindən, leytenant Kamalov,- coşğunluqla deyərək vəsiqəsini döş cibinə qoydu.

Beləliklə Siracın rəngi solaraq ağarmağa başladı. Buna baxmayaraq o özünü əla almağa calışdı.

-Işinizdə uğurlar,- dodağnın altında dedi.

-Siz yataqxanaya nə vaxt gəldiniz? -leytenant ağız dolusu soruşdu.

Sirac sağ əli ilə anlını, cənəsini qaşıdı.

-Əslində, bir... yox, yarım saat ancaq olar. Nə olub?

-Bir saatmı, yoxsa yarım saatmı?

-Açığı... yadımda deyi. İşdən doqquzun yarısı olardı çıxanda. Yolda bir saata yaxın ola bilərəm ...

Leytenant oğlanın özünü itirməsinə baxmayaraq heç nə gizlətmədiyinə şübhə etmədi.

-Bağışlayın, qolunuza nə olduğunu bilmək olarmı?

Sirac “indi mənimki bitdi” deyib, dərindən nəfəs aldı. Nəhayət, olacağa çarə yoxdur, arxasında gizlətdiyi əlini irəli çəkdi. Leytenant ehtiyatla zənciri əlinə alıb, sonra Fəyaza üz tutdu. Eyni zamanda Fəyazın gözlərində misli görünməmiş təccüb əksi görünürdü.

-B-bu, budur, Şərqiyənin boynundakı qızıl boyunbağı!.. Eynilə odur, özüm hədiyyə etmişəm. - Sonra gözləri yanaraq, Siracın yaxasına əl atdı. - Demək sən... Şərqiyəni sən öldürübsən. De, niyə öldürübsən? Bu qızıl boyunbağı üçünmü? De.

Bundan sonrakı hadisələr şimşək sürətində baş verdi. “Kartı” vaxtından əvvəl acdığı üçün Fəyazın daxildə qorxu hissləri yarandı və leytenant da hadisələrin bu qədər tez cərəyan edəcəyini gözləmirdi. Fəyaz yalnız iki üç saniyə içində ona vurulan güclü zərbədən otağın küncünə düşdü. Sirac isə, güclə özünü qapıya atdı. Oturub gözləməyin vaxtı deyildi. Fikrini bir yerə toplayan milis nəfəri yataqxananın qapısı qarşısında keşik çəkib duran oğlanlara zəng vurdu. Fəyaz isə, şübhəsiz yerindən qalxıb eşiyə çıxdı.

* * *

Prokuraturanın müstəntiqi Muradbəy Xocımetovun bir neçə gün idi ki, fikri qarışıq idi. Fikirdən gecə yata bilməmişdi. Tələbə yataqxanasında baş verən bu hadisə həqiqətən dolaşıq düşən kələfə oxşayırdı.

Məlumatın daxil olması ilə əməliyyat qrupunun hadisə yerinə çatması bir an çəkdi. Baş vermiş hadisə ətraflı öyrənildi. Adəti üzrə bütün tədbirlər görüldü.

İlk baxışdan qatili tapmaq çox asan görünür. Yataqxanada sayca çox az insan qalmışdı. Digərləri qış tətilini keçirmək üçün öz evlərinə getmişdi. İşləyən, oxuyan və başqa səbəblərə görə tətilə gedə bilməyən tələbələrə direktorun xüsusi göstərişinə əsasən yataqxanada qalmağa icazə verilmişdi. Onlarında böyük bir hissəsi ilə görüşüb, danışılmışdı. Onlardan dört nəfəri bir fakültətə oxuyurdular. Onlar növbəti imtahana yaxşı hazırlaşmaq məqsədi ilə yataqxanada qalmışdı. Bax bu dörd nəfərdən biri indi yoxdu. Onu isə kimin öldürdüyü məlum deyil. Mərhum Mutalovanı ölümündən əvvəl axırıncı dəfə otaq yoldaşı Vüsalə Əsgərova görüb. O yuyunmaq üçün birinci mərtəbədə yerləşən duşa düşüb qayıdana kimi, aradan yarım saatqırx dəqiqəyə kimi vaxt keçib. Qız otağa girən kimi rəfiqəsinin tərpənmədən yatdığını görüb, dərhal kurs yoldaşı, bu yataqxanada qalan Fəyaza SMS göndərib. Aradan on beş dəqiqə ötməmiş Fəyaz digər kurs yoldaşı Masudla birgə özlərini yetiriblər.

Muradbəy Masudu yaxşı tanıyırdı. İki illik yay təcrübəsini bir yerdə rayon prokurorluğunda keçirmişdilər. Ötən ilin yayında bir cinayətin aclışına da böyük töhfə vermişdi. Onun bacarığı, biliyi və işə səy göstərməsi prokurorun da diqqətindən yayınmamışdı elə buna görə də təhsilini başa vurduqdan sonra onu burada işə götürəcəyini nəzərdə tutmuşdu. Bu dəfə də dəlil və faktların toplanmasında onun köməyi çox oldu. Məsudbəy tələbə yoldaşları, onların xasiyyətləri, qarşılıqlı münasibətləri barədə qiymətli məlumatlar verdi.

Əgər əldə olunan dəlilərə və məlumatlara inansaq, onda qətil törədilən zaman Fəyaz yataqxanadan çox uzaqda yerləşən idman kompleksində Masudbəylə bir yerdə olub. O Məsudbəyin  düzgün, qətiyyətli  olmasını bilirdi.  Elə buna görə də onun dediklərinə  rahatlıqla inana bilərdi.

Deməli onlar idman kompleksində  məşq edən zaman Şərqiyə onlara  zəng edib vahiməli səslə kömək istəmişdi. Təkrar  zəng etsələrdə, qızın  telefonuna düşə bilməyiblər. Aradan on iki dəqiqə keçdikdən sonra  ona başqa bir tələbə yoldaşı Visola zəng edib...

Hər ehtimala qarşı  ücünündə əl telefonu  yoxlanıldı. Adətən telefona daxil olan və telefondan zəng olunan nömrələrin hər biri yaddaşda qalır.  Bu göstəricilərə görə də Şərqiyə Fəyaza gecə saat ona üc dəqiqə işləyəndə,Visalə isə on beş dəqiqə işləyəndə zəng edib. Telefon zənglərinin vaxtı və danışığın necə dəqiqə cəkməsi də telefonun yaddaşında qeyd olunub. Bu isə məsələni dəqiq aydınlaşdırır. Beləliklə, həmin on iki dəqiqədə  yazıq qızın taleyi həll edilib...

İndi, əsas şübhəli qismində iki kişi: biri  Fəyazın otaq yoldaşı Daniyar.  Hadisə baş verən zaman o yataqxanada olub. Tələbə  yoldaşlarının dediklərinə görə,  bir vaxtlar Şərqiyə onun xoşuna gəlib. Daha sonra hansısa söhbət dən sonra aralarındakı  əlaqələr kəsilib.  Son zamanlarda  mərhumə ancaq Fəyazla təmasda olurmuş...

***(Davamı var)***

*Tərcüməçi:*
*Ədalət MƏMMƏDOV*